# YAP Mərkəzi Seçki Qərargahının növbəti iclası olub

Dekabrın 20-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Seçki Qərargahının genişləndirilmiş iclası keçirilib. İclasda YAP yerli seçki qərargahlarının sədrləri də iştirak ediblər.



2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planının icra vəziyyəti müzakirə olunub, dekabrın 20-dək nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirildiyi qeyd edilərək qarşıda duran əsas hərəkət və tədbirlərin də müəyyən olunmuş müddətlərdə icrasına dair fikir mübadiləsi aparılıb, müvafiq tapşırıq və tövsiyələr verilib.



Azərbaycan.- 2023.- 21 dekabr, № 279.- S.5.